# Gənclər Günü münasibətilə tədbirlər




***Əsası ümummilli lider Heydər Əliyev tərəfindən qoyulmuş dövlət gənclər siyasəti Azərbaycan gəncliyinin inkişafında xüsusi önəm kəsb edir. Ulu öndərin 1997-ci il fevralın 2-də imzaladığı fərmana əsasən, fevralın 2-si Azərbaycan Gəncləri Günü elan edilib. Həmin vaxtdan etibarən Gənclər Günü MDB məkanında və Şərqi Avropa ölkələri arasında ilk dəfə olaraq Azərbaycanda təntənəli şəkildə qeyd edilməyə başlanıb.***

Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi, Dövlət Rəsm Qalereyası və Heydər Əliyev Sarayının təşkilatçılığı ilə bu gün Heydər Əliyev Sarayında “Bizi birləşdirən mədəniyyət” layihəsi çərçivəsində Gənclər Gününə həsr olunmuş “AXIN” adlı sərgi keçiriləcək. Sərgi gənclərin cəmiyyətdəki fəallığının təmin edilməsi, istedad və bacarıqlarının üzə çıxarılması, mədəni tədbir və layihələrdə iştiraklarının dəstəklənməsi, bədii-estetik zövqünün formalaşdırılması məqsədilə təşkil olunur.

Sərginin ekspozisiyasında 40 nəfərə yaxın gənc rəssamın əsəri nümayiş etdirilir.

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin təşkilatçılığı ilə fevralın 2-dən 4-dək Gənclər Günü münasibətilə “Yeni gənclik” musiqi günləri adı altında bir neçə tədbirin də keçirilməsi nəzərdə tutulmuşdur. Fevralın 2-də Azərbaycan Dövlət Akademik Filarmoniyasında Q.Qarayev adına Azərbaycan Dövlət Kamera Orkestri ilə “Gənclərə dəstək” layihəsinin iştirakçılarının konserti, Azərbaycan Dövlət Mahnı Teatrında gənc caz ifaçılarının, fevralın 3-də Beynəlxalq Muğam Mərkəzində Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyasının “Detaşe” violonçular ansamblının, fevralın- 4-də Azərbaycan Dövlət Akademik Filarmoniyasında Üzeyir Hacıbəyli adına Azərbaycan Dövlət Simfonik Orkestrinin konsertləri keçiriləcək.

***M.MÜKKƏRRƏMOĞLU,***
***“Xalq qəzeti”***

Xalq qəzeti.- 2022.- 1 fevral.- S.10.